

## NARKOMANIYA NƏDIR?

- Narkomaniya – insanın ağıl, iradə, hiss və emosiyalarını, ümumən psixikasını zədəliyən fiziki və psixoloji asılılıqdır;
- Bihuş olmaq və ya ağrını azaltmaq məqsədilə müxtəlif üsullarla bədənə yeridilən narkotik vasitələrə qarşı meyillilik və ya aludəçilikdir;
- Orqanizmin funksiyalarını ağır şəkildə pozulmasına səbəb olan, narkotik vasitələrdən patoloji asılılıq yaradan xəstəlikdir;
- Narkomaniya davranış pozğunluğudur, dəyərlər sisteminin dəyişməsi nəticəsində şəxsiyyətin tənəzzülüdür.




## NARKOTIK VASITƏLƏRDƏN ASILILIQ

Narkotik vasitılırdın asılılıq bu maddələrdən bir və ya bir neçə dəfə istifadə etməklə yaranır. Ilk əvvəl xoş hisslər yaranmaga başlayır və istifadəçilər bu aldadıcı təsirin, yəni sevinc və enerjinin həmin maddələrdə olmasına inanırlar. Bir müddət sonra narkotik vasitələrdən mütəmadi istifadə edənlər həzz hissini itirir və fiziki asılılığa düçar olurlar. Narkotik vasitələrdən imtina etmək istədikdə belə şiddətli ağrılarla üzləşirlər. Əksəriyyət bu ağrılara dözə bilmədiyi üçün narkotik vasitələrdən istifadəni davam etdirir. Növbəti dozanı əldə etmək üçün çox zaman, soyğunçuluq, qarət və digər ağır cinəyətlərə əl atırlar.

## BUNLARI BILMƏK MÜTLƏQDIR!

Narkotik vasitələr - daxili orqanların zədələnməsi və vaxtsız ölümə gətirib çıxaran zəhərli maddələrdir;
Bu maddələrdən istifadə insanda fiziki və psixoloji asılılıq yaradır;
Bu maddə istifadəçilərindən doğulan uşaqlar fiziki və əqli qüsurlu olur;
Bu maddənin istifadəsi QİÇS, Hepatit C, Sifilis kimi ağır yoluxucu xəstəliklərin yaranmasına səbəb olur.

## AZƏRBAYCAN RESPUBLIKASININ CINAYƏT MƏCƏLLƏSI

<u>Maddə 234:</u> Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma
<u>Maddə 235:</u> Narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etmə
<u>Maddə 236:</u> Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə
<u>Maddə 237:</u> Qanunsuz olaraq tərkibində narkotik maddələr olan bitkiləri kultivasiya etmə
<u>Maddə 238:</u> Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakı üçün tiryəkxanalar təşkil etmə və ya saxlama
<u>Maddə 239:</u> Narkotik vasitələri və psixotrop maddələri əldə etmək hüququ verən reseptləri tibbi göstəricilər olmadan qanunsuz vermə və ya saxtalaşdırma

## NARKOTIK MADDƏLƏRDƏN ISTIFADƏNIN INSAN HƏYATI ÜÇÜN YARATDIĞI FƏSADLAR

- İnsan sağlam düşüncəsini itirir, intellekt zəifləyir, emosional sferaya dağıdıcı təsir göstərir;
- İnsanı zəif və iradəsiz edir;
- Cinayətkarlığa sövq edir;
- Bir çox xəstəliklərin yaranmasına səbəb olur;
- Insanlar arasındakı münasibətlərin zəiflənməsi və pozulmasına səbəb olur;
- Ümumən şəxsiyyətin inkişafına mane olur.




## NARKOTIK MADDƏLƏRDƏN ASILI OLAN INSANLAR NƏ ETMƏLIDIRLƏR?

- Özünə qapanmamalı, dərdini yaxınları ilə bölüşməli;
- Düşdüyü yalnış və zərərli mühiti dəyişməli;
- Mütləq narkoloqa və psixoloqa müraciət etməlidirlər.



## NARKOMANIYAYA DÜÇAR OLMUŞ INSANI XARAKTERIZƏ EDƏN ƏLAMƏTLƏR

- Yuxusuzluq və solğunluq;
- Kütləşmiş, donuq mimika;
- Gözlərin donuq ifadəsi;
- Burun dəliklərinin tutulması;
- Əllərin titrəməsi, damarların zədələnməsi və iltihabı;
- Göz bəbəyinin genişlənməsi və yaxud daralması;
- Aqressiv və ya etinasız davranış.

Regional mərkəzlərlə iş şöbəsi: (99412) 498 94 02

AZƏRBAYCAN RESPUBLİKASININ AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

# NARKOTİKLƏRƏ YOX DEYƏK